# "Qoy "Ədalət" zəfər çalsın!"

## "Ədalət" qəzetinin 25 illik yubileyinə həsr olunur...

*Hər bir dövlətin, xalqın taleyində onun mətbuatı mühüm rol oynayır. Azərbaycanın öz müstəqilliyinin bərpası uğrunda mübarizə apardığı bir dövrdə - 1990-cı ildə yaranmaqla ölkənin ən ağır günlərində fəaliyyətə başlayan "Ədalət" qəzeti artıq 25 illik yubileyini qeyd edir. Qəzetin yarandığı dövrdə Azərbaycanın ictimai-siyasi həyatında çox ciddi proseslər baş verirdi.*

*Dövlətimizin keçdiyi keşməkeşli yollarda, bütün sınaqlarda onun fəaliyyətini işıqlandıran, həmçinin xalqının qəzeti olmağı bacaran "Ədalət" bu müddət ərzində adının mənasını, ləyaqətini qorumağı bacardı: xalqın sözünü, dövlətin mənafeyini ədalətli şəkildə əks etdirdi. Keçdiyi 25 illik yolda bir çox çətinliklərə, maddi sıxıntılara sinə gərərək sadiq jurnalist kollektivi ilə ölkə həyatını yüksək peşəkarlıqla qələmə aldı.*

*İllərdir xalqın yoluna işıq saçan 25 yaşlı "gənc"lə bağlı Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni sferasında tanınmış şəxsləri öz ürək sözlərini bölüşdülər:*

**Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov:** "Ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəlləri Azərbaycan xalqı üçün təlatümlü zaman kəsiyi idi. İmperiyanın süqutunu yaxınlaşdıran proseslərin geniş vüsət alması fonunda cücərməkdə olan milli özünüdərk hissi cəmiyyətin bütövlükdə ahəngini müəyyənləşdirən faktor rolunda çıxış edirdi. Bu hissin daşıyıcısı rolunda isə müstəqil mətbuat orqanları çıxış edirlər. Belə nümunələrdən biri də "Ədalət" qəzeti idi. "Ədalət" qəzeti fəaliyyətə başlaması ilə nəinki klassik mətbuatımıza xas ənənələrin dirçəlməsinə təkan verdi, eyni zamanda özünəməxsus dəst-xətt yaratdı. Nəşrin məqsədi doğma Vətənimizi müstəqil görməyə köklənmişdi. Qəzet bu amal uğrundakı mücadiləni öz səhifələrinə daşımaqla şərəfli missiya yerinə yetirdi. Həmçinin azad sözə, müstəqil fikrə duyulan ehtiyacı cəmiyyətin sosial sifarişi zəminində ödəməsi nəşri milyonlara tanıtdırdı, onu jurnalist əməyinin təntənəsinə çevirdi. Ötən 25 ili xarakterizə edərkən məhz bunları vurğulamaq lazımdır. "Ədalət" qəzeti indi də daşıdığı ada, prinsiplərinə sadiqdir. Bu sadiqlik nəşri müasir Azərbaycan cəmiyyəti üçün fərqli baxışların səsləndiyi tribunaya çevirib. Qəzet mövzu və üslub rəngarəngliyinə, dil xüsusiyyətlərinə və digər peşəkarlıq meyarlarına görə seçilir. Azərbaycan Mətbuat Şurası yaradıcı potensialı, ən əsası isə böyük tarixi ənənəsi olan "Ədalət" qəzetini 25 illik yubileyi münasibətilə təbrik edir, nəşrə yeni-yeni uğurlar arzulayıram".

**Milət vəkili Adil Əliyev:** ""Ədalət" qəzetinin yaranmasının 25 illik yubleyi ilə bağlı təbrik edirəm. Azərbaycan mətbuat tarixində xüsusi yeri olan qəzetdir. Qəzet hər zaman müxtəlif sosial,mədəni və milli vətənpərvərlik və s.mövzularını diqqətdə saxlayır və xüsusi araşdırma yazılarla oxucuların ixtiyarına gəlir. Köşə yazarlarının yazıları qəzetə xüsusi rəng verir. Müstəqillik hərəkatı dövründə meydana gələn qəzetin, bu günə qədər fəaliyyət göstərməsi həmkar dostumuz Aqil Abbasın, İradə xanım Tuncayın və qəzetin əməkdaşlarının əməkləri sayəsində olmuşdur. Bu, insanların şücaəti sayəsində qəzet fəaliyyətini davam etdirir. Qəzetin ətrafında hər zaman istedadlı qələm sahiblərinin imzalarını görmüşük. Bu gün ölkənin bir sıra tanınmış qələm sahibləri "Ədalət"in məktəbini keçiblər. Onlar indi müxtəlif sahələrdə çalışmalarına baxmayaraq, bu məktəbin yetirmələridir. "Ədalət" onlar üçün, həm də həyat məktəbi olub. Qəzet 10 illik deputatlıq dönəmimdə fəaliyyətimə xüsusi diqqət ayırıb və qəzetdən daim dəstək görmüşəm. Bir daha qəzetin əməkdaşlarını ürəkdən təbrik edirəm və müvəffəqiyyət arzulayıram".

**Milli Məclisin deputatı, İqtisadi və Sosial İnnovasiyalar İnstitutunun rəhbəri Əli Məsimli** -Azərbaycanın media məkanında öz mövqeyi, dəsti-xətti və üslubu ilə seçilən "Ədalət" qəzetinin 25 il yüksələn xətlə hərəkəti və populyar olması çağdaş mətbuat tariximizin parlaq səhifələrindən biri, mühüm ictimai-mədəni hadisəsidir. Azərbaycanın milli azadlıq hərəkatının kulminasiya nöqtəsi- 1990-cı ildən bu yana keçən illər ərzində "Ədalət" qəzeti yeni mətbuat mühitindəki qəzet bolluğu, sərt rəqabət şəraitində çətinlik, problem və həyəcan labirintlərindən bacarıqla keçərək duruş gətirə bilib və sayılıb-seçilən qəzetlərindən birinə çevrilib. "Ədalət" qəzeti 25 il bundan əvvəl bir hüquq qəzeti kimi media məkanına daxil olsa da, məmləkətimizin və dünyanın siyasi, iqtisadi, ictimai məsələlərini, mədəniyyət, incəsənət, idman mövzularını öz səhifələrində işıqlandırmaqla yanaşı, həm də bir sıra sərt reallıqları əks etdirməklə cəmiyyətin səsi kimi ictimai qəzet platformasına yaxındır. Qəzet cəmiyyətin aktual problemləri ilə bağlı mövqe bildirməyə meyilli olan ziyalıların, tədqiqatçıların, yaradıcı adamların tribunası kimi daha çox əksəriyyətin qəzeti olmaq missiyasını yerinə yetirir. Bu da onu topluma yaxın edir və buna görə də müxtəlif nəslin nümayəndələri və fərqliixtisaslı insanlar tərəfindən eyni maraqla oxunur. Yüksək peşəkarların rəhbərlik etdiyi və çalışdığı "Ədalət" qəzeti obyektivlik, millilik, müasirlik və vətəndaşa yaxın olmaq səylərini reallaşdırmaq xüsusiyyətləri, eləcə də informasiyanı informasiya naminə yox, cəmiyyətə lazım olan məlumatıvermək, hər şeyin yaxşını, maraqlısını vermək onu daha da oxunaqlı edir. Qəzet insan xarakterindən yazanda, onun hamıya məlum məqamlarından yox, iki ildən bir dəyişməsindən yazaraq əlavə diqqət çəkir,"göydələnlər"dən yazanda, sadəcə bunu böyük bir hadisə kimi geniş, yorucu şərhindən yox, qarajı balkonunda olan orijinal göydələndən yazır və mövzunu yaddaqalan və maraqlı edir. Əminəm ki, qəzetin yaradıcıları 25 illik yolu yeni keyfiyyətdə və mərhələdə davam etdirəcək, gerçəklikləri yaymaqla sosial mühiti olduğu kimi göstərməyi bundan sonra da özünün borcu hesab edəcək, fikir plürazmi üçün açıq olmaqla Azərbaycanda demokratiyanın davamlı prosesə çevrilməsinə öz töhfəsini verməkdə davam edəcək. Peşəkar rəhbərlik, çox önəmli və dəyərli jurnalistlərdən ibarət yaradıcı heyəti özündə birləşdirən "Ədalət" qəzetinin oxucusu və ara-sıra olsa da, burada çıxan ictimai, iqtisadi yönlü bəzi yazıların müəllifi kimi 25 illik yubileyinizi təbrik edir, redaksiya heyətinə fəaliyyətində yeni-yeni yaradıcılıq uğurları arzulayıram!

**Millət vəkili Fazil Mustafa** - "Ədalət" qəzeti bizim müasir mətbuatın qaranquşlarından biridir. Həm də demokratik mətbuatın öncüllərindən hesab olunur. Xatırlayıram, 25 il öncə hakimiyyətə müxalifətdə olan bir tələbə - deputatlığa namizəd kimi "Ədalət" qəzeti ən böyük köşəsini mənə verməşdi. "Ədalət" dostum Aqil Abbasın orijinal üslubundan yaranan fərqli bir mətbuat nümunəsidir və öz dəyərini hər zaman qoruyub saxlayıb. Başda Aqil Abbas, İradə Tuncay olmaqla bütün qəzetdə zəhməti olan insanları yubiley münasibəti ilə təbrik edirəm, daha böyük uğurlara imza atmanızı arzulayıram.

**Millət vəkili Fuad Muradov** - "Ədalət" qəzeti ölkəmizin müstəqillik tarixində özünəməxsus yeri olan mətbu orqandır. Bu illər ərzində Azərbaycanın inkişafı, dövlətimizin milli maraqlarının qorunması istiqamətində çıxış edən "Ədalət" qəzetini 25 illik yubileyi münasibəti ilə təbrik edirəm. Bu illər ərzində qazanılan uğurların davamlı olmasını və yeni-yeni nailiyyətlərin əldə edilməsini arzulayıram. Qəzetin təsisçisi, millət vəkili Aqil Abbas və dəyərli jurnalist İradə Tuncayı xüsusi olaraq təbrik edirəm.

***Azərbaycan Yazıçılar Birliyinin (AYB) katibi, şair Rəşad Məcid*** - "Ədalət" qəzeti mənim üçün doğma bir qəzetdir. Bu qəzetin fəaliyyətə başladığı gündən orda çalışmışam. Bütün prosesler yadımdadır. İlk sayını hazırlamağımız, şövqümüz, həvəsimiz, iddiamız... Aqil Abbas böyük jurnalistdir. Həssas intuisiyalı bir şəxsdir. Məhz onun sayəsində "Ədalət" qəzeti 25 il ictimai fikirdə öncül yerlərdən birini tutub. Bugünkü "Ədalət" qəzetinə isə İradə xanımın təmkini, sanballı intellekti hopub. Mən 25 yaşlı "Ədalət"i təbrik edirəm və bu təbriki indiyədək "Ədalət"də çalışmış bütün jurnalistlərə ünvanlayıram.

**Ədəbi tənqidçi Əsəd Cahangir** - Özgürlük dövrü Azərbaycan mətbuatının əsasını qoyan qəzetlərdən biri "Ədalət" qəzeti, çağdaş Azərbaycan mətbuatının yaradıcılarından biri isə bu qəzetin təsisçisi, uzun illər ona baş redaktorluq edən tanınmış yazıçı-publisist Aqil Abbasdır. Adından da göründüyü kimi, sosial ədalət ideayası qəzetin ana yapısında durur və məncə, 25 illik fəaliyyətində qəzet bu yüksək adı daşımağa layiq olduğunu hər sayı ilə sübut edir. "Ədalət" - sözünü deməyə yer tapa bilməyənlərin azad tribunasıdır. Aqil müəllimin bir təsisçi və baş redaktor kimi ən fərqləndirici özəlliyi ondadır ki, o bu qəzetdə heç bir mətbu orqanda görmədiyim demokratik abhava yarada bilib. Məncə, bu qəbil demokratizm, söz azadlığı, plürazlizm, müəllif fikrinə sayğı hətta qərb ölkələrində belə yoxdur. Xoşdur ki, bir ildən artıq Aqil müəllimlə birgə işləmiş, "Ədalət" qəzetində "Körpü" ədəbiyyat əlavəsi buraxmışam. Qeyd etdiyim bu təqdirəlayiq cəhətlər də gəlişigözəl yubiley tərifi olmayıb, birbaşa canlı müşahidələrimdən doğur. "Körpü"dən başqa "Ədalət"də bir neçə ədəbiyyat əlavəsi də dərc olunurdu və bu əlavələrlə Aqil müəllim çağdaş ədəbi-bədii fikrin inkişafına heç bir şeylə müqayisə edilməyəcək təkan verdi. Mübaliğə olmasa deyərdim ki, çağdaş Azərbaycan ədəbiyyatının əsas istiqamətləri "Ədalət"in səhifələrindəki o əlavələrdə qoyuldu. O əlavələrdə ilk yazılarını dərc etdirən onlarla gənc bu gün ölkənin tanınmış imzaları, Azərbaycan ədəbiyyatının yaradıcılarıdır. Çağdaş milli mətbuatın bir çox ünlü imzaları da "Ədalət"in yetirmələridir ki, onların sırasında ilk ağla gələn təbiidir ki, "525-ci qəzet"in baş redaktoru, tanınmış yazıçı-publisit Rəşad Məciddir. Bu gün "Ədalət" qəzetinə müəlifi olduğu teleproqramlardan və publisistik yazılarından yaxşı tanıdığımız İradə xanım Tuncay baş redaktorluq edir. Qəzetin yüksək professionallığı ilə seçilən kollektivi var ki, bunların sırasında tanınmış, istedadlı şair Əbülfət Mədətoğlunun adını xüsusi qeyd etmək istəyirəm. "Ədalət" yenə də etibarlı əllərdədir. Ədalətlə yaşamağı və ədalətlə yazmağı əsas prinsipə çevirən bütün qələm adamları, dostlar, oxucular adından "Ədalət"in 25 yaşını ürəkdən təbrik edir, onun kollektivinin hər bir üzvünə yaradıcılıq uğurları və xoşbəxtlik arzulayıram. Qoy "Ədalət" zəfər çalsın!

**AYB-nin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri, şair Səlim Babullaoğlu** - "Ədalət" qəzetini 25 illik yubiey münasibəti ilə təbrik edirəm. "Ədalət" qəzeti" yeni Azərbaycan mətbuat tarixinin unudulmayacaq, uzun illər sonra tədqiq ediləcək işıqlı səhifələrindən biridir. Müstəqillik illərinin fikir tarixində "Ədalət" qəzeti öz yeri, öz danılmaz haqqı var. Xatırlayıram, vaxtilə "Ədalət" qəzeti özünün "Ədəbiyyat əlavələri"ni də çap edib, öz ətrafına müxtəlif dünyagörüşlü gənc ədəbiyyatçıları toplaya bilmişdi. Bu da "Ədalət" qəzetinin yeni ədəbiyyatımız qarşısındakı xidmətlərindən biridir. Mən Aqil Abbası, İradə Tuncayı, qəzetinizin bütün kollektivini yubiley münasibətilə ürəkdən təbrik edirəm.

**AYB-nin mətbuat xidmətinin rəhbəri, şair Xəyal Rza** - "Ədalət" qəzeti Azərbaycan mətbuatında öz yolu, öz üslubu olan bir qəzetdir. "Ədalət" qəzeti hər zaman ədalətin yanında olub və öz adını monolit mövqeyi ilə sübut edib. "Ədalət"in hər zaman tirajlı, oxunan bir qəzet olacağına inanıram. Çünki qəzetin həm əvvəlki baş redaktoru Aqil Abbas, həm də indiki baş redaktoru İradə Tuncay peşəkardırlar. "Ədalət" qəzetinin xüsusilə ədəbiyyat sahəsinə diqqət və qayğısı isə bizi sevindirir. Mehriban və işgüzar kollektivinizi 25 yaş münasibətilə təbrik edir, bundan sonrakı fəaliyyətinizdə də uğurlar arzulayıram.

**Xalq Artisti Nurəddin Mehdixanlı** - 25 yaşına çatmış "Ədalət" qəzetinin bütün əməkdaşlarını, bu mətbu orqanını yaradan, Azərbaycan mətbuatında "Ədalət" ömrünün yaşanmasının təməlini qoyan və onun yaşam səbəbi olan dəyərli ziyalımız Aqil Abbası, onunla bərabər bu çətin və uzun yollarda yorulmadan çalışan bütün çiyindaşlarını təbrik edirəm. Hər birinizə və qəzetinizə uzun və faydalı, ən əsası sağlam ömür arzulayıram. 25-niz 50, 50-niz 100-ə yetsin. "Ədalət"imiz daima başda olsun, üstün olsun, güclu olsun! Azərbaycanımız "Ədalət"siz - "Ədalət"miz Azərbaycansız olmasın. Çünki, ƏDALƏT MÜLKÜN TƏMƏLİDİR!

**"Teleqraf" Holdinqin rəhbəri Aynur Camal** - 25 il boyuk zaman kəsiyi deyil. Amma gənc dövlət üçün böyük tarixdir. Bu dövlətlə birgə addımlamaq, onunla birgə böyümək, onun acısını-şirinini yaşamaq və paylaşmaq həqiqətən də böyük şərəf və məsuliyyətdir. Bu şərəfli və məsuliyyətli vəzifəni "Ədalət" qəzeti ustalıqla yerinə yetirib. Bu fəaliyyətdə dəyərli həmkarlarıma uğurlar arzulayıram. "Ədalət" qəzetinə bu dövlət ucaldıqca ucalmağı, qocaldıqca qocalmağı arzulayıram. Və ən önəmlisi hörmətli İradə Tuncayı fəxri ada layiq görülməyi münasibətilə təbrik edirəm. Bu, "Ədalət" qəzetinin uğurudur həm də. Ugurlarınız davamlı olsun!!!

**Rabitə və yüksək texnologiyalar nazirinin müşaviri Müşfiq Əmirov** - Çoxsaylı kütləvi informasiya vasitələri arasında öz yerini tutmaq, tutduğu mövqeyini layiqincə qoruya bilmək bugünkü rəqabət mühitində heç də bütün mətbu orqanına müyəssər olmur. "Bu bir xalq qəzetidi" devizinə söykənərək, keçdiyi 25 illik tarixdə "Ədalət" qəzeti həqiqətən də xalqın sevimli mətbu orqanına çevrilməyi bacarıb. Bu gün hər kateqoriyadan, hər auditoriyadan özünə çoxsaylı oxucular qazanan qəzet "Siyasət", "Dünya", "Məmləkət", "Hüquq", "Müsahibə", "Mədəniyyət" və s. kimi rubrikalarda müxtəlif janrlara müraciət edərək, ən dolğun, dürüst və dəqiq xəbərlərlə oxucuların görüşünə gəlir. "Ədalət"i ədalət prinsipləri üzərində yürüdən qəzet cəmiyyətin aktual problemlərini obyektiv şəkildə qabardaraq, milli mətbuat tarixində öz izini qoymaqdadır. "Ədalət"i və onun timsalında ədaləti axtaranları - biz oxucuları bir daha təbrik edir, təsisçi, millət vəkili Aqil Abbas, baş redaktor İradə xanım Tuncay başda olmaqla, qəzetin yaradıcı kollektivinə daha böyük uğurlar diləyirəm!

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayev:** "Azərbaycan mətbuatının dəyərli nümunələrindən və ölkə ictimaiyyətinin maraqla izlədiyi nəşrlərdən biri olan "Ədalət" qəzetinin 25 illiyi münasibəti ilə qəzetin redaksiya heyətini səmimi qəlbdən təbrik edirəm. 1990-cı ildə ilk sayı işıq üzü görən "Ədalət" qəzeti qısa müddətdə cəmiyyət üçün aktual ictimai-siyasi və mənəvi-əxlaqi mövzuları əhatə edən dolğun və rəngarəng mündəricəsi ilə geniş oxucu auditoriyası qazanıb. 25 illik fəaliyyəti dövründə milli mətbuat ənənələrinə və mənsub olduğu xalqın maraq və mənafelərinə daim sadiq qalan qəzet eyni zamanda, bu və ya digər məsələyə münasibətdə öz adına uyğun olaraq ədaləti və obyektiv mətbu mövqeyi ilə oxucu rəğbətinin ünvanına çevrilib. Ən başlıcası, bu qəzetdə öz peşəsini sevən, onun yüksək dəyər və prinsiplərini həmişə uca tutan, hər bir mövzuya vicdan və ləyaqətlə yanaşan istedadlı və yaradıcı jurnalist kollektivinin çalışması ona olan ictimai inam və etimadı daha da artırıb. Təsadüfi deyil ki, hazırda ölkədə çoxsaylı KİV-lər, o cümlədən elektron media orqanları fəaliyyət göstərməsinə baxmayaraq, "Ədalət" qəzeti hər sayı maraqla qarşılanan və oxunan qəzetlərdən biri olaraq qalır. Əminik ki, qəzet bundan sonra da fəaliyyətini uğurla davam etdirəcək.

Bütün "Ədalət"çiləri bir daha ürəkdən təbrik edir, hər birinə dəyərli peşə fəaliyyətində yeni-yeni uğurlar, yaradıcılıq sevincləri diləyirəm".

**Şəfiqə ŞƏFA**